***Sülh, bərabərhüquqlu əməkdaşlıq, mehriban qonşuluq, hamıya hörmətlə, ehtiramla yanaşmaq türk xalqlarının mənəvi irslərindəndir. Böyük sərkərdə və dövlət xadimi Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh!" çağırışı da, ulu öndər Heydər Əliyevin "Bizim ərazilərimizin 20 faizi işğal altında olsa da, daim münaqişənin sülh və danışıqlar yolu ilə həll edilməsinə tərəfdar olmuşuq" deyimi də məhz həmin mənəvi dəyərlərimizdən qaynaqlanır.***

***Biz Ermənistanla sülh müqaviləsi imzalamağa hazırıq... Biz hesab edirik ki, məsələ həll olunub, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bir-birinin ərazi bütövlüyünün tanınması olmalıdır, sərhədlərin tanınması olmalıdır, delimitasiya işlərinə start verilməlidir. Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



# Sülhə qarşı çıxan ölkə

## *Bu inad Ermənistanı daha böyük məğlubiyyətlərə aparır*

Ancaq, çox təəssüf ki, məlum dairələrin son iki əsrdə Cənubi Qafqaza köçürdüyü ermənilər burada mövcud olduqları müddətdə nəinki bir dəfə olsun belə, hansısa sülhdən danışmayıblar, əksinə bütün fəaliyyətlərini terror, təxribat, separatçılıq, işğalçılıq, münaqişə və müharibələrə həsr ediblər. Həm də bu fəaliyyəti təkcə azərbaycanlılara, dövlətimizə qarşı deyil, regionun əksər xalqlarına və dövlətlərinə qarşı aparıblar. Bu xalqın tarixində, ədəbiyyatında və ya hansısa fəaliyyət sahəsində sülh sözü yoxdur. Xəstə təfəkkür onların Azərbaycan ərazisində qurduğu dövlətin də qanunlarına hopmuşdur.

Ekspertlər yazırlar ki, bu gün Ermənistan bütün dünyada sülhə qarşı çıxan dövlət kimi tanınır. Çox təəssüf ki, onların həmin mərəzdən əziyyət çəkməsi bəzi siyasi dairələrin işinə yarayır. Daha doğrusu, bəzi dövlətlər onlardan alət kimi istifadə edir və ermənilərsə bunun həzzini yaşayırlar.

Ötən əsrin ortalarında ABŞ-dakı qaradərililərin hüquqlarının müdafiəsi uğrunda yaradılmış hərəkatın lideri, ictimai xadim Martin Lüter Kinq insanları sülhə çağıran nitqlərindən birində demişdir: "Quş kimi uçmağı və balıq kimi üzməyi öyrəndik. Ancaq çox sadə bir sənəti unutduq – sülh şəraitində yaşamağı". Həmin məntiq sanki bugünkü Ermənistanın boyuna biçilib. Çünki bu insanlar saxta yolla dövlət qurmağı da bacarıblar, başqa xalqın ərazisini qəsb etməyi də, dünyanı öz yalanlarına inandırmağı da, ancaq sadə bir sənəti – sülh şəraitində yaşamağı öyrənə bilməyiblər. Bu da onlara daim bədbəxtlik gətirib və yenə də gətirəcək.

Həmin xəstəlik onları getdikcə daha çox yalançı, riyakar və ikiüzlü kimi tanıdır. İş o yerə çatıb ki, bu oyuncaq dövlətin hərdəmxəyal baş naziri günün birinci yarısında dediklərini günortadan sonra tamamilə təkzib edir. Məsələn, o, sentyabrın 14-də – Azərbaycan Ordusunun "qapazını" daddıqdan bir gün sonra demişdi ki, İrəvan Azərbaycanla müəyyən sənəd imzalamaq niyyətindədir. O, hətta, buna görə satqın adlandırıla biləcəyini də vurğulamışdı. Paşinyanın çıxışından sonra Ermənistanda kütləvi etiraz aksiyaları başlanmış və baş nazir qələt elədiyini boynuna almışdır: "Mən heç bir sənəd imzalamamışam, planlaşdırılmayıb, hətta mənim masamın üstündə belə bir layihə yoxdur". Belə bir dövlət başçısı öz ölkəsinin maraqlarını necə qoruya bilər və ya onunla hansısa sülh danışıqları aparmağa dəyərmi?



Ermənistanın sülhə münasibətinin mənfi cəhətlərini göstərən bir sıra məqamlar vardır ki, həmin faktlar bu dövlətə nifrət edənlərin sayını gündən-günə artırır. Bu ölkənin rəhbərləri Azərbaycan ərazisində Xocalı soyqıyımını törədiblərsə, indi bizimlə üz-üzə oturub necə sülhdən danışa bilərlər? Bu qaraçı millət bir milyon nəfərə yaxın azərbaycanlıya otuz il qaçqınlıq və məcburi köçkünlük taleyi yaşadıbsa, indi hansı üzlə sülhdən danışa bilər? Bu millət Azərbaycan ərazilərinin 20 faizindəki bütün əmlakı sökük, talayıb aparıbsa, satıbsa, şəhər və kəndləri virana qoyubsa, ekoloji mühitə vəhşicəsinə ziyan vurubsa, tarixi, mədəni, dini abidələri yerlə-yeksan edibsə, indi Azərbaycanla sülh masası ətrafında necə otura bilər?

Bütün bu sarsıdıcı suallara cavab tapa bilməyəcəyini yaxşı bilən İrəvan rəhbərliyi Azərbaycanın sülh çağırışlarından hər vəchlə qaçır, istənilən sənədi imzalamaqdan imtina edir. Bu imtinalar üçün isə səbəblər, bəhanələr tapılmalıdır. Sentyabrın 12-dən 13-ə keçən gecə törədilmiş təxribatlar məhz həmin "axtarış"ların nəticələrindən idi. Bu qatil, cəlad, adamyeyən qövmün təmsilçiləri iki əsrdir ki, Azərbaycanın mülki şəxslərinə divan tutur, onları yandırır, öldürür, metyitlərini təhqir edir. Həm 44 günlük İkinci Qarabağ müharibəsi dövründə, həm də müharibə bitəndən sonra müntəzəm olaraq törətdikləri təxribatlarda daha çox mülki obyektləri hədəf seçirlər ki, Azərbaycan əsgəri də həmin addımı atsın. Biz həmin addımları atmırıq.

Yeri gəlmişkən, son təxribat zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən açılan atəş nəticəsində Kəlbəcər rayonu ərazisində heyvandarlıqla məşğul olan Goranboy rayonunun Veyisli kəndində yaşayan – Kəlbəcərin Bozlu kənd sakini, 1975-ci il təvəllüdlü Musayev Asim İsa oğlu və Goranboy rayonunun Qaraçinar kəndində yaşayan Kəlbəcər rayonu Ağdaban kənd sakini 1984-cü il təvəllüdlü Orucov Arzuman İman oğlu yaralanıblar. Xatırladaq ki, 2020-ci ilin iyulunda Tovuz hadisələri zamanı da əsasən mülki şəxslər hədəfə alınmışdı.

Erməni şərəfsizliyini göstərən əsas məqamlardan biri də bu ölkənin Rusiya ilə münasibətlərdə inanılmaz dərəcədə riyakarlıq və ikiüzlülük etməsidir. İrəvan rəhbərliyi nəinki hansısa ictimai-siyasi proseslər zamanı, hətta təbii fəlakətlər baş verəndə də dərhal Moskvaya zəng edir, yalvarır. İndi Moskvanın başı Ukraynaya qarışdığına görə Rusiya Prezidenti Vladimir Putinin də imzaladığı üçtərəfli Bəyanatın icrasından imtina edirlər. Bu isə təkcə riyakarlıq deyil, həm də şərəfsizlikdir. Unudurlar ki, 2020-ci ilin noyabrında Vladimir Putin Azərbaycan rəhbərliyindən xahiş etməsəydi, ordumuz elə həmin ay Xankəndini bütün qaçaq-quldurlardan təmizləyəcəkdi. Bunu hamı bilir.

Yaxud, Ermənistan baş naziri Rusiyanın təşəbbüsü ilə Özbəkistanın Səmərqənd şəhərində keçiriləcək sammitə getməkdən imtina elədi. Bu, az imiş kimi, Azərbaycanla sərhəddə irimiqyaslı təxribatlar törədərək açıq şəkildə Moskvanın əleyhinə getdi. Ekspertlərin fikrincə, Rusiyanın "diqqətinin Ukraynaya yönəldiyini" güman edən Ermənistan rəhbərliyi Moskvanın kommunikasiyaların açılması təşəbbüsünü puça çıxarmaq üçün məhz 13 sentyabr təxribatına əl atdı. Ermənistan öz hərəkətləri ilə üçtərəfli formatdan çıxmağa, gündəmi dəyişməyə və yeni vasitəçilər tapmağa çalışır. Bütün bunlar isə Rusiyanın maraqlarına qarşıdır.

Yeni Ermənistan dövləti də, erməni xalqı da açıq-açığına Cənubi Qafqazda sülhün bərpasına qarşıdır. Sülhə qarşı getmək isə küləyin əksinə tüpürmək kimidir.

Qalib dövlətin Prezidenti, müzəffər ordunun Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi, istənilən təxribatın və ya revanşist addımın nəticəsində yenə də Ermənistan peşman olacaq.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***